BÜRKÜT

Türk Dünyası Dergisi

BÜRKÜT

Journal of Turkish World

www.burkutdergisi.com

Araştırma Makalesi

Makale Geliş Tarihi: Kasım, 2022

Makale Kabul Tarihi: Aralık, 2022

Valehoğlu, F. (2022). Aziz Şerif ve Gürcistan Demokratik Cümhuriyeti (1918-1921). *Bürküt Türk Dünyası Dergisi, 1*(1), 23-34.

ƏZİZ ŞƏRİF VƏ GÜRCÜSTAN DEMOKRATİK RESPUBLİKASI (1918-1921)

Dr. Fahri VALEHOĞLU HACILAR

Azerbaycan Cumhuriyeti Dışişleri Bakanlığı haciyevf@yahoo.com ORCID

Öz

26 Mayıs 1918'de bağımsızlığını ilan eden ve ancak 33 ay varlığını sürdürebilen Gürcistan Demokratik Cumhuriyeti'nde yerel Türk nüfusunun yaşanan siyasi ve sosyal süreçlere katılımının incelenmesi büyük önem taşımaktadır. Tiflis'te yaşayan Türk aydınlar bu süreçlerde aktif rol oynamışlardır. Bu aydınlardan biri, önde gelen edebiyat bilgini-bilim adamı, eleştirmen ve çevirmen olan Aziz Şerif'tir (Abdülaziz Şerifov/Aziz Kurbanali oğlu Şerifzade).

Eylül 1918'de Aziz Şerif, Gürcistan'ın birinci parlamentosunda (Milli Şurası) milletvekili görevini kazandı ve aynı zamanda Borçalı kazasının okul bölümünün başkanlığına atandı. Şubat 1919'da yeni parlamentonun (Müessisler Meclisinin) kurulması nedeniyle milletvekili olarak görevi sona erdi. Haziran 1919'da Borçalı kazasının yerel öz yönetim kurumlarına yapılan seçimlere katılan A. Şerif, Gürcistan Sosyal Demokrat İşçi Partisi ve Hümmet'ın birleşik listesine göre Borçalı seçki dairesinden kaza glasnısı (vekil) seçilir. Aynı zamanda, o, Borçalı yerel öz yönetim kurumunun beş üyesinden biriydi ve halk eğitimi, tıbbi-sağlık ve veterinerlik bölümlerine başkanlık ediyordu.

16 Aralık 1919'da Borcali bölgesindeki Katerinenfeld Alman kolonisinde gerçekleşen Gürcistan "Hümmet" Sosyal-Demokrat İşçi Partisi'nin (Menşevikler) ilk kongresinde A.Şerif, Merkezi Komite Başkanlığı'na seçilir.

Bu makalede Gürcistan Parlamentosu üyesi ve Borçalı kazasının glasnısı (vekili), Gürcistan Sosyal Demokrat Partisi "Hümmet" merkezi komitesinin başkanı olarak Aziz Şerif'in 1918-1921 yıllarındaki Gürcistan Demokratik Cumhuriyeti'ndeki sosyo-politik faaliyetlerini incelemek amaçlanmıştır.

Anahtar Sözcükler: Aziz Şerif, Gürcistan Demokratik Cumhuriyeti, Borçalı, "Hümmet" teşkilatı.

AZIZ SHARIF AND THE DEMOCRATIC REPUBLIC OF GEORGIA (1918-1921)

Abstract

A study of the participation of the local Turkic population in the socio-political processes taking place in the Democratic Republic of Georgia, which declared its independence on May 26, 1918 and was able to continue its existence for only 33 months, has major importance. Turkic intellectuals living in Tiflis actively participated in those processes. One such

intellectual was a prominent literary scholar-scientist, critic, and translator - Aziz Sharif (Abdulaziz Sharifov, Aziz Kurbanali oghlu Sharifzadeh),

At the same time, Aziz Sharif was elected as a deputy to Georgia's first parliament and appointed as the head of the Borchali district's school department. In February 1919, due to the formation of the new parliament, his mandate as a deputy ended. In June 1919, A. Sharif, who took part in the elections to the local self-governing bodies of Borchali district, was elected district glasni (deputy) from Borchali district on the single list of the Social-Democratic Party of Georgia and "Hummat" organization. At the same time, he was one of the five members of the Borchali local self-government department and headed the public education, medical-sanitary, and veterinary departments of the department.

At the first congress of the Georgian "Hummat" Social-Democratic Party (Mensheviks), held on December 16, 1919 in the Katerinenfeld German colony of Borchali district, A. Sharif was elected the chairman of the central committee of the said party.

The paper examines the socio-political activities of Aziz Sharif as a member of the Georgian Parliament and a member of Borchali district, chairman of the central committee of the Social-Democratic Party of Georgia "Hummat" in the Democratic Republic of Georgia, which existed in 1918–1921.

Keywords: Aziz Şerif, Democratic Republic of Georgia, Borchali, "Hummat" organization.

Ø. Giriş

1895-ci ildə Naxçıvanda dünyaya qədəm basmış və bu şəhərdə ibtidai təhsil almış görkəmli ədəbiyyatşünas-alim, tənqidçi, tərcüməçi Əziz Şərifin (Əbdüləziz Şərifov, Əziz Qurbanəli oğlu Şərifzadə) ömrünün gənclik dövrü, əsasən, Tiflislə bağlı olur. O, orta təhsilini 1915-ci ildə Tiflisdə başa vurub, həmin il Moskva Kommersiya İnstitutuna qəbul olur. 1917-ci ildə Ümumrusiya miqyasında baş verən taleyüklü siyasi-ictimai proseslər, kütləvi xalq hərəkatları Cənubi Qafqaza da təsirsiz ötüşmür və Əziz Şərif tələbə ikən "Hümmət" Sosial-Demokrat Müsəlman Təşkilatının sıralarında aktiv siyasi-ictimai həyata atılır. O, İrəvan quberniyasının Naxçıvan şəhərinin fəhlə və əsgər deputatları şurasının icraiyyə komitəsinin sədr müavini və fəhlə deputatları şurasının sədri vəzifəsini tutur, Oktyabr çevrilişindən sonra – 1917-ci ilin 26-28 noyabr tarixlərində keçirilmiş Ümumrusiya Müəssislər Məclisinə seçkilərdə iştirak edir; onun adı Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının (menşeviklər) "Hümmət" müsəlman təşkilatının Zaqafqaziya seçki dairəsi üzrə 12 nəfərlik namizəd siyahısında 5-ci sırada qərarlaşır (*Borba*, 1917, № 137).

1918-ci ilin yanvar ayında yenidən orta təhsil aldığı Tiflisə qayıdan Ə. Şərif burada "Hümmət"in yerli şöbəsinin ən fəal üzvlərindən biri olur. O, "Hümmət"in yayım orqanları olan "Gələcək" (1918-1919) və "Probujdeniye" (1919) qəzetlərinə redaktorluq edir, həmçinin, Tiflisdə nəşr olunan digər qəzet-jurnallarla əməkdaşlıq edir. Tiflisə dönüşü barədə Ə. Şərif xatirələrində bunları qeyd edirdi: "Rusiya inqilabı dünyanı sarsıdırdı. Onun dalğaları məni də doğma yurdumdan ayırıb, Tiflisə atdı və uzun müddət Tiflisdə yaşayıb, tiflisli oldum" (Şərif, 1977, s. 122).

Gürcüstan sosial-demokratlarının gürcücə aparıcı mətbu orqanı olan "Ertoba" qəzetinin 1918-ci il 7 fevral tarixli sayında yayımlanan məlumatından bəlli olur ki, Rusiya Sosial-Demokrat Partiyasının Cənubi Qafqaz təşkilatının VIII qurultayında Əziz Şərif də çıxış edənlər arasında olur. Öz nitqində o, tədbir iştirakçılarını müsəlman əhalinin bəylərin tərəfini saxlamadığına əmin edərək deyir: "Əgər "Müsavat" seçkilərdə çox səs toplayıbsa, bu, seçkilərin

qeyri-normal şəraitdə keçməsinin nəticəsidir. İşləmək lazımdır və müsəlman əhali bizim tərəfimizə keçəcəkdir" (*Ertoba*, 1918, № 30, s. 3-4).

1. Ə. Şərif - Gürcüstan Milli Şurasının üzvü

26 may 1918-ci ildə müstəqilliyini elan etmiş Gürcüstan Demokratik Respublikasının ilk ali qanunverici orqanı olan Milli Şura qəbul etdiyi 13 sentyabr 1918-ci il tarixli qanunla öz tərkibində etnik azlıqların nümayəndələrinə saylarına uyğun kvotalar ayırır. Bu qanuna əsasən, Əziz Şərif görkəmli yazıçı və diplomat Əbdürrəhim bəy Haqverdiyev, müəllim Mirzə Hüseyn Həsənzadə və sol radikal sosialistlərin liderlərindən Əliheydər Qarayev ilə birlikdə Gürcüstan Müsəlmanlarının Milli Şurasının xətti ilə 1918-ci ilin oktyabr ayında artıq rəsmən parlament adlandırılan (*Sakartvelos Respublika*, 1918, № 63, s.1) Gürcüstan Milli Şurasında ölkə azərbaycanlılarını təmsil etmək hüququnu əldə edir.

Stenoqram yazılarından Ə.Şərifin parlament iclaslarında müəyyən məsələlərə dair müzakirələrdə fəal iştirak etdiyini görmək mümkündür.

Parlamentin 15 oktyabr tarixli iclasında "Dövlət dili haqqında" qanunun müzakirəsi zamanı sədr Ekvtime Takaişvilidən söz istəyən Ə.Şərif gürcü dilini sərbəst bilmədiyinə görə üzrxahlıq edərək həm özünün, həm də müsəlman yoldaşlarının çıxışları zamanı deputatların hamısının başa düşdüyü rus dilindən istifadə etməli olacaqlarını qeyd edir və müsəlman deputatların adından aşağıdakı bəyanatı səsləndirir:

> Biz, sizinlə eyni mühiti bölüşən Gürcüstan müsəlmanlarının nümayəndələri ümid edirik ki, xalqımızın psixologiyasını və istəklərini bilməklə müsəlmanlara aid olan məsələlərdə sizin çətin işinizi asanlaşdıra bilərik. Hesab edirik ki, bizim xalqların dostluğu və qardaşlığı haqqında danışmaq ziyadədir, çünki onların bir-birinə münasibəti hamıya yaxşı bəllidir.
>
> Yalnız xarici qüvvələrin deyil, həmçinin, öz aralarından çıxmış xalq düşmənlərinin zərbələrini üzərində hiss edən müsəlman demokratiyası indi dərindən nəfəs alacaq, azadlığın gözəlliyini və dinc əməyi hiss edəcək və onda, inanın, onu müstəqil Gürcüstandan aralaya biləcək elə bir güc olmayacaq (alqışlar). Bizə azadlıq bəxş edən böyük rus inqilabı ağır, az qala ölümcül böhran dövrünü yaşayır və onun nailiyyətlərinin – azadlıq və bərabərliyin saxlandığı, dostluğun, birliyin mövcud olduğu bir guşə varsa – bu, kiçik Gürcüstandır (alqışlar). Biz, Gürcüstan müsəlmanlarının nümayəndələri bu nailiyyətləri bütün mümkün qüvvələrimizlə möhkəmləndirəcəyik və istər xarici, istərsə də daxili düşmənlərdən qoruyacağıq.
>
> Və bilin, bu gənc dövləti hansı sınaqların gözləməsindən və hansı təhlükələrin təhdid etməsindən asılı olmayaraq biz cəsarətlə, davamlı olaraq sizinlə çiyin-çiyinə addımlayacağıq və həm sevincinizi, həm də gələcəkdə mümkün kədərinizi qardaşcasına bölüşəcəyik (alqışlar).
>
> Gürcüstan parlamentinin üzvü olan vətəndaşlar, sizi salamlayaraq, sizin simanızda azadlıqsevər gürcü xalqına atəşin salamlar və səmimi arzularımı göndərirəm (*Ertoba*, 1918, № 222; *Borba*, 1918, № 194; *Kavkazskoye slovo*, 1918, № 222; *Azerbaydjan*, 1918, № 14, s. 2).

Ə.Şərif bu çıxışına başlayarkən onun rus dilində olmasına etiraz əlaməti olaraq milli-demokratlar nümayişkaranə şəkildə zalı tərk etsələr də, azərbaycanlı-müsəlman deputatın nitqi İ.Tsereteli və digər sosial-demokratlar tərəfindən böyük məmnunluqla qarşılanır. Bu barədə məlumat dərc edən rusdilli "Qruziya" qəzeti istehza ilə yazırdı: "Özlərinin rus dilində çıxışları ilə gürcü siyasi partiyaları arasında münasibətlərin daha da kəskinləşməsinə səbəb olan müsəlman "hümmətçiləri" gürcü xalqının düşmənləri təbrik edə bilərlər... Cənab Şərifova "şərəf və şöhrət"!.." (*Qruziya*, 1918, № 36).

Parlamentin 19 fevral 1919-cu il tarixli iclasında Axalsıx (Ahısqa) qəzasında baş vermiş üsyan müzakirə obyekti olur. Deputatlardan P.Sağvarelidze, N.Xomeriki baş verən hadisələrdə yerli müsəlman əhalinin deyil, xarici qüvvələrin və bəylərin əli olduğunu söyləyərək, Axalsıx döyüşlərində gürcü ordusu ilə çiyin-çiyinə 250 yerli müsəlmanın son damla qanlarına qədər döyüşdüyünü, şəhəri də ən axırda elə onların tərk etdiyini deyirlər. Aparılan müzakirələrdə Ə.Şərif də söz alaraq adları çəkilən həmkarlarının sözlərini dəstəkləyir və baş verən hadisələrin günahını feodallarda görür: “Axalsıx hadisələrində günahı feodal ünsürlərdə görürük. Onlar həmişə bizim düşmənlərimiz olubdurlar. Ölkəni təhlükədən qorumaq üçün onlara qarşı şiddətli mübarizə aparmaq zəruridir” (*Ertoba*, 1919, № 44, s. 3).

Pedaqoq-alim G.Qocayeva-Məmmədovanın Gürcüstan Demokratik Respublikasında yerli Azərbaycan türklərinin təhsil tarixinə dair araşdırmalarından Ə.Şərifin deputatlığa paralel olaraq Borçalı qəzasının məktəb şöbəsinin müdiri vəzifəsini tutub, qəzada maarif işinin inkişafına rəhbərlik etdiyi bəlli olur:

> 1919-cu il yanvarın 31-də Borçalı qəza məktəb şöbəsinin müdiri və idarə üzvü Ə.Şərifovun imzasıyla Xalq Maarifi Nazirliyinə belə məzmunda təliqə yazılmışdı: “Borçalı qəzasında məktəb işi öz inkişafının birinci pilləsindədir və buna görə Xalq Maarifi Nazirliyinin ona xüsusi diqqət yetirməyini tələb edir. Ələlxüsus, bu baxımdan müsəlman və erməni kəndləri geri qalırlar, belə ki, həmin kəndlərin sayı ilə müqayisədə məktəblərin sayı olduqca az faizi təşkil edir, məsələn, Zalqada 5 müsəlman kəndində yalnız bir məktəb var, erməni kəndlərində vəziyyət heç də bundan yaxşı deyildir”... Yerli idarə məclisi bu durumu, əhalinin maariflənməsi ehtiyaclarını nəzərə alaraq, Maarif Nazirliyindən qəzada yeni məktəblər açılması üçün zəruri kredit buraxmağını xahiş etmişdi. Nazirlik xahişi yerinə yetirmiş və qəzada 6 yeni Azərbaycan məktəbi də təşkil olunmuşdu (Paşayev, Bayramov və Qocayeva-Məmmədova, 2012, s. 172-173).

1919-cu ilin 14-17 fevral tarixlərində bərabər və birbaşa seçki hüququ əsasında gizli və azad səsvermə yolu ilə keçirilmiş ümumxalq seçkiləri nəticəsində Gürcüstan Milli Şurasının transformasiyası əsasında yaranmış parlament fəaliyyətini dayandırır və ali qanunvericilik səlahiyyətini Gürcüstan Müəssislər Məclisinə ötürür.

Arxiv sənədlərindən və o dövrün mətbuat xəbərlərindən aydın olur ki, Müəssislər Məclisinə seçkilər zamanı Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının 14 yanvar 1919-cu il tarixində təsdiq olunmuş ilkin siyahısına 3 türk-müsəlmanın – 39-cu sırada Hüseynqulu (Söyünqulu) Məmməd oğlu Məmmədovun, 65-ci sırada Əbdüləziz Qurbanəli oğlu Şərifovun və 119-cu sırada Əhməd Əli oğlu Məmmədovun adları salınmışdısa (*GMTA*, f. 1834, s. 2, iş 73; *Sakartvelo*, 1919, № 12, s. 2; *Sakartvelos Respublika*, 1919, № 15, s. 2), sonradan müəyyən korrektələr edilir və siyahıda yalnız əslən Qaraçöp mahalının Yor-Muğanlı kəndindən olan Hüseynqulu Məmmədovun adı saxlanılır (*Sakartvelos Respublika*, 1919, № 25).

2. Ə. Şərif – Borçalı qəza məclisinin üzvü

Əziz Şərif 1919-cu ilin iyun ayında Borçalı qəzasının yerli özünüidarəetmə orqanlarına seçkilərə qatılaraq Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının və “Hümmət”in vahid siyahısı üzrə Borçalı dairəsindən qəza qlasnısı (qəza məclisinin üzvü, qəza məclisinin deputatı) seçilir (Valehoğlu-Hacılar və Hacılar, 2018, № 45-46).

20-22 iyul 1919-cu il tarixlərində Katerinenfeld (Yekaterinenfeld – indiki Bolnis şəhəri) koloniyasında Borçalı qəza yerli özünüidarəetmə məclisi (“eroba”sının) ilk iclası keçirilir. 24 qlasnının, daxili işlər naziri P.Çiçinadzenin və Müəssislər Məclisinin üzvü E.Sirbiladzenin iştirak

etdiyi toplantıda əvvəlcə qlasnıların təntənəli surətdə aşağıdakı məzmunda andiçmə mərasimi baş tutur:

"Mən, Borçalı qəzasının erobasının qlasnısı Gürcüstan Demokratik Respublikasının xalqı və hökuməti qarşısında öz müqəddəs vəzifəmi icra etməyə başlayaraq, ədalətlə milliyətindən asılı olmayaraq əhalinin və Respublikanın maraqlarına xidmət edərək bütün işlərimdə zəhmətkeş xalqın və öz vicdanımın səsini dinləməyə təntənəli şəkildə söz verirəm" (*Kavkasiis kalaki*, 1919, № 18-19, s. 85-86).

Toplantıda salamlama nitqi ilə daxili işlər naziri çıxış etdikdən sonra sayları 5 nəfər üzvdən ibarət yerli özünüidarəetmə idarəsi – qəza məclisi idarəsi (zemstvo upravası, eroba idarəsi) formalaşdırılır; üzvlərdən iqtisadi elmlər namizədləri olan ikisi – P.M. Kavkasidze və R.A. Ramişvili kənardan dəvət olunurlar, üçü isə – Ə.Q. Şərifov (Moskva Kommersiya İnstitutunun 4-cü kurs tələbəsi), N.S. Papandopulo (milliyətcə yunan, orta təhsilli xalq müəllimi) və E.İ. Kromer (milliyətcə alman, orta təhsilli) qlasnılar arasından seçilirlər. P.M. Kavkasidze sözügedən idarənin sədri seçilir. İclasda idarənin sədrinə 2500 rubl, üzvlərinə isə 2250 rubl aylıq məvacib təyin olunur, həmçinin, idarə nəzdində 12 şöbə – inzibati, məhkəmə, aqronom, aqrar, maliyyə, statistika, mühasibatlıq, tibbi-sanitar, veterinar, xalq maarifi, ərzaq və texniki şöbələr təsis edilir. Əziz Şərifə xalq maarifi, tibbi-sanitar və veterinar şöbələr həvalə olunur (*Kavkasiis kalaki*, 1919, № 18-19, s. 85-86). "Qafqaz şəhəri" jurnalının 1919-cu il 1 noyabr tarixli sayına istinadən təqdim etdiyimiz bu məlumatda Ə.Şərifin 1915-ci ildə qəbul olunduğu Moskva Kommersiya İnstitutunun 4-cü kurs tələbəsi olması barədə qeyd diqqəti çəkir. Bu qeyddən aşkar olur ki, Ə.Şərif Gürcüstanda yaşayaraq ictimai-siyasi fəaliyyətlə məşğul olmaqla bərabər ali təhsilini də qiyabi və kəsintisiz şəkildə davam etdirə bilirdi.

Borçalı qəza məclisinin ilk toplantısının iştirakçılarının – Borçalı qəza məclisi şurasının sədri Al.K. Korintelinin, qəza məclisi idarəsinin sədri P.M.Kavkasidzenin və üzvləri Ə.Q. Şərifovun, E.İ.Kromerin, N.S. Papandopulonun, R.A. Ramişvilinin, eləcə də toplantıya qatılan qəza məclisi qlasnılarının birgə fotoşəkli gürcü dilində nəşr olunan "Teatr və həyat" dərgisinin 1919-cu il 12-ci sayında dərc olunaraq tarixin yaddaşına həkk olunmuşdur (*Teatri da tsxovreba*, 1919, № 12, s.12).

"Qafqaz şəhəri"nin Borçalı üzrə bölgə müxbiri İ.Arselovun Katerinenfelddən verdiyi məlumatdan Ə.Şərifin Borçalı qəza məclisi idarəsinin təhsil, səhiyyə, baytarlıq sahələrinə məsul əməkdaşı kimi fəaliyyətinin məhsuldar olduğu aydınlaşır. İnzibati binasının olmaması səbəbindən "uprava"nın faktiki olaraq avqust ayının ikinci yarısında fəaliyyətə başladığı, ancaq buna rəğmən qısa müddət ərzində çox iş gördüyü vurğulanan məlumatda, xüsusən də inzibati aparatın bütövlükdə yeniləndiyi, qəzaya həkimlər, feldşerlər, tibb bacıları və müəllimlərin dəvət edildiyi, bir neçə həkim, veterinar və feldşer məntəqəsinin açıldığı qeyd olunurdu (*Kavkasiis kalaki*, 1919, № 18-19, s. 87).

Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının mərkəzi komitəsinin rusdilli "Borba" qəzetinin 23 dekabr 1919-cu il tarixli sayında "Gürcüstan "Hümmət" Partiyasının qurultayı" başlıqlı məlumat dərc olunmuşdu. Məlumatda 16 dekabr 1919-cu ildə Borçalı qəzasının Katerinenfeld alman koloniyasında Gürcüstan "Hümmət" Sosial-Demokrat Fəhlə Partiyasının (menşeviklər) ilk qurultayının keçirildiyi və qurultayın gündəliyinə aşağıdakı məsələlərin salındığı bildirilirdi:

- Bölgələrdən məruzələrin dinlənilməsi;
- Partiya təbliğatının gücləndirilməsi;
- Təşkilatın yeni özəklərinin yaradılması;
- Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyası ilə əlaqələr;

- Üzvlük və qəbul haqları;
- İanələrin yığımı;
- Partiyanın mərkəzi komitəsinə seçkilər;
- Cari məsələlər.

Qurultayda Əziz Şərif Gürcüstan "Hümmət" Sosial-Demokrat Fəhlə Partiyasının mərkəzi komitəsinin sədri, bolus-kəpənəkçili Molla İsa Molla Nəsib oğlu – sədr müavini, arıxlılı Ziyəddin Əfəndiyev (tədqiqatçı, ədəbi tənqidçi, yazıçı, şair və pedaqoq Ziya Borçalı) – katibi, Məşədi Bala Aslan oğlu, Axlımahmudlu kəndindən Məmməd Hacı oğlu, Saraçlıdan Qurban Hasan oğlu (Aşıq Hüseyn Saraçlının atası) və İ. Aslan oğlu isə üzvləri seçilirlər (*Borba*, 1919, № 292).

Qeyd edək ki, Gürcüstan "Hümmət" Partiyasının mərkəzi komitəsində təmsil olunanlardan M. Hacı oğlu ilə M. B. Aslan oğlu Ə.Şəriflə birlikdə Borçalı dairəsindən, M. İ. Nəsib oğlu və Q. Hasan oğlu isə Katerinenfeld dairəsindən Borçalı qəza qlasnısı seçilmişdilər (*Sakartvelo*, 1919, № 137, s. 4). Z. Əfəndiyevin adı isə Tiflis şəhər şurasına 2 fevral 1919-cu ildə keçirilmiş seçkilər zamanı Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının seçki siyahısında 90-cı sırada əks olunmuşdur (*Sakartvelos respublika*, 1919, № 14, s. 3).

Gürcüstan hümmətçi-menşeviklərinin ilk qurultayında partiyanın yeni seçilmiş mərkəzi komitəsinə Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının mərkəzi komitəsi ilə sıx əməkdaşlıq əlaqələri qurmaq həvalə olunur və növbəti qurultayın 1920-ci ilin yaz fəslinin sonunda çağırılması qərarlaşdırılır. Qurultay tərəfindən Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının mərkəzi komitəsinə, Gürcüstan Demokratik Respublikasının hökumətinin və Müəssislər Məclisinin sədrinə, Azərbaycan Parlamentinin "Hümmət" fraksiyasına və "Hümmət" Partiyasının Bakı komitəsinə, Ermənistan Sosial-Demokrat Partiyasının İrəvan komitəsinə qurultayın sədri Ə.Şərifov və katibi Z.Əfəndiyevin imzalarıyla salamlama teleqramları göndərilir. Azərbaycan hümmətçilərinə göndərilən teleqramda deyilirdi:

"Gürcüstan hümmətçilərinin Borçalıda toplanmış birinci qurultayı Azərbaycan proletariatı idealları uğrunda mübarizə aparan şərəfli yoldaşları ürəkdən salamlayır. İnqilabın keşiyində duraraq öz xoşbəxt demokratiyalarını quran Bakı fəhlələrinə səmimi salamlarımızı çatdırmağı xahiş edirik".

Gürcüstan hökuməti və parlamentinə ünvanlanmış teleqram bu məzmunda idi:

"Gürcüstan "Hümmət" Partiyasının birinci qurultayı inqilab və vətəndaş azadlıqları beşiyi olan Gürcüstan Demokratik Respublikasını ürəkdən salamlayır. Bizim partiya Gürcüstan proletariatı ilə birgə Gürcüstan Respublikasının gücləndirilməsi üçün çalışacaqdır" (*Borba*, 1919, № 294).

3. Ə.Şərifin Gürcüstan Demokratik Respublikasının süqutundan sonrakı fəaliyyəti

Azərbaycan sovet işğalına məruz qalandan bir neçə gün sonra, 1920-ci ilin may ayının 14-də Əziz Şərifin sədrliyi ilə Katerinenfelddə solçu Borçalı müsəlmanlarının növbəti qurultayı keçirilir. Tədbirdə Ə.Şərif çıxış edərək bolşeviklərin qələbəsinin Rusiyanı bir neçə müstəqil hissəyə böldüyünü vurğulayır, müsəlmanları gürcü hökumətinin ətrafında birləşməyə çağırır və qeyd edir ki, "çiçəklənən Gürcüstan bütün dünya üçün bolşevizm siyasətinin uğursuzluğunun sübutudur" (*Borba*, 1920, № 136).

Müəssislər Məclisinin üzvləri Akaki Çxenkeli və Gerasim Maxaradzenin, eləcə də digər rəsmi şəxslərin, sosialist yönümlü 150 nümayəndənin qatıldığı qurultayda aşağıdakı məzmunda qətnamə qəbul olunur:

> Azərbaycanın mürtəce hökuməti demokratiyanın geniş kütlələri arasında özünün daxili zəifliyi və qeyri-populyarlığı səbəbindən şimaldan axın etmiş anarxiyanın qarşısını ala bilmədi, öz ərazisinə bolşevik qoşunlarını buraxdı, bununla da ölkənin xalq tərəfindən

qurbanlar bahasına əldə edilmiş azadlıq və müstəqilliyini məhv etdi. Öz zəncirlərini qırmış anarxiya Azərbaycanla məhdudlaşmayıb, Gürcüstanın müstəqilliyini qan içində boğaraq azadlığını yox etmək, burada hökm sürən sülh və əmin-amanlığını pozmaq, özünün qana bulaşmış və kirli bayrağını sancmaq üçün Gürcüstanın üzərinə gəlir. Bu səbəbdən bütün Gürcüstan müsəlmanlarının respublikanın azadlığı və müstəqilliyini təcavüzlərdən qorumaq məsələsində öz hökumətini dəstəkləməsi və ona hərtərəfli kömək göstərməsi zəruridir.

Qurultay hökuməti dəstəkləyərək arzu edir ki, hökumət və Müəssislər Məclisi indiyədək olduğu kimi, gələcəkdə də müsəlmanları öz doğma övladları hesab etsin, onlara xeyirxahlıqla yanaşsın və onların çoxsaylı ehtiyaclarının təmin edilməsi yollarını axtarsınlar.

Qurultay Müəssislər Məclisi və hökuməti əmin edir ki, Borçalı demokratiyası öz azadlığını və müstəqilliyini qorumaq naminə tam gücüylə Gürcüstan demokratiyası ilə birləşəcəkdir (Borba, 1920, № 112).

Qurultay iştirakçıları, həmçinin, Ə.Şərifin imzası ilə Gürcüstan Respublikası hökumətinin sədrinə belə bir depeşa göndərir:

“Borçalı müsəlmanlarının qurultayı sizi – hüquq-bərabərlik bayrağını yüksəkdə tutan, respublikanın müstəqilliyini qapıda dayanmış düşməndən (bolşeviklərdən – F.V.-H.) qorunmasını əhd etmiş gürcü demokratiyasının rəhbərini salamlayır. Yaşasın Gürcüstan Respublikası” (*Sakartvelos Respublika*, 1920, 108, s. 3; *Slovo*, 1920, № 110, s. 3).

Qurultay tərəfindən Gürcüstan Müəssislər Məclisinin sədrinə də aşağıdakı məzmunda teleqram ünvanlanır:

“Borçalı müsəlmanlarının qurultayı xalqın iradəsinin ifadəçisi olan Müəssislər Məclisini salamlayır və ümid edir ki, Gürcüstanın birləşmiş demokratiyası respublikanın bütün düşmənlərinə cavab verəcək” (*Slovo*, 1920, № 110, s. 3).

“Hümmət”in Gürcüstan şöbəsinin Azərbaycan türkcəsində həftəlik yayım orqanı “Yeni dünya” siyasi, ictimai, iqtisadi, xalq qəzetinin 30 noyabr 1920-ci il tarixli 24-cü sayında dərc olunmuş məlumatdan Ə. Şərifin həmin ilin 26 noyabrında Gürcüstan hökumətinin sədri N.Jordaniya ilə görüşərək yerli türk-müsəlman əhalinin təhsil, mədəniyyət, mətbuat və digər sahələrdə üzləşdiyi problemləri müzakirə etdiyi bəlli olur: “Bu cümə günü Gürcüstanda Hümmət firqəsinin sədri yoldaş Əziz Şərif Gürcüstan hökumətinin sədri Noe Jordanianın hüzurunda bulunub ona Gürcüstan müsəlmanlarının haqqında bir məruzə təqdim etmişdir. Bu məruzədə Ə.Şərif Gürcüstan türklərinin mədəniyyət və maarif işlərinə kömək istəyir. Bu kömək gərək ibarət olsun: 1) Türk müəllimləri hazırlaşdırmaqdan və hər haradan olsa əlli nəfər ali mədrəsələr qurtarmışların çağırılmağından, 2) Tiflisdə Türk teatrosundan və qeyri-maarif cəmiyyətlərindən ötəri Voronsov küçəsində bir böyük ev tikilməsindən ki, bu evdə həm teatro olsun, həm də xalq darülfünü, qiraətxana, kitabxana və qeyri, 3) Türk dilində qəzet və kitabçalar çap olunmasına kömək etməkdən...” (Paşayev, Bayramov və Qocayeva-Məmmədova, 2012, s. 171-172).

Məlumdur ki, Gürcüstan Demokratik Respublikası 1921-ci ilin fevral ayında süquta uğrayandan sonra Əziz Şərif vaxtilə Gürcüstan Milli Şurasında eyni kürsünü bölüşdüyü Əliheydər Qarayevin göstərişi ilə Gürcüstan Sosial-Demokrat Partiyası (menşeviklər) Mərkəzi Komitəsinin üzvü kimi həbs edilərək Bakıya gətirilmiş, lakin çox keçmədən N.Nərimanovun birbaşa müdaxiləsi ilə azadlığa buraxılmışdır. 1922-ci ilin yanvar ayında Naxçıvan Sovet Sosialist Respublikasının Gürcüstanda nümayəndəsi təyin edilmiş, 1925-1935-ci illərdə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsində məsləhətçi vəzifəsini tutmuşdur. XX əsrin 20-30-cu illərdə

Tiflisdə müxtəlif dövlət vəzifələri icra etməklə yanaşı, mətbuat və nəşriyyat sahəsində də çalışmışdır. 1943-cü ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun tənqid bölməsini bitirmiş, 1950-1961-ci illərdə SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda və Dünya Ədəbiyyatı İnstitutunda baş elmi işçi olmuş, 1956-cı ildə "Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1963-cü ildə Azərbaycanın Əməkdar Elm Xadimi fəxri adına layiq görülmüşdür. 1961-1988-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filologiya fakültəsində SSRİ xalqları ədəbiyyatı kafedrasının professoru vəzifəsində çalışmışdır. O, 1988-ci ildə Moskvada vəfat etmiş, Naxçıvanda dəfn olunmuşdur.

Tənqid, ədəbiyyatşünaslıq və bədii tərcümə sahəsində səmərəli fəaliyyət göstərən Ə. Şərif ilk gənclik illərində Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" jurnalının redaksiyasında işləmiş, həmin dövrdə görkəmli Azərbaycan şair və yazarlarından M.Ə.Sabir, Ə.Haqverdiyev, H.Cavid və Ə.Qəmküsarla yaxın dostluq əlaqələrində olmuş, ədəbi fəaliyyətə də "Molla Nəsrəddin"də dərc olunan "Naxçıvandan məktublar"ı ilə başlamışdır. Ə.Şərifin Ə.Haqverdiyevlə dostluq əlaqələri onların Gürcüstan Milli Şurasında – parlamentində həmkar olduqları zamandan etibarən daha da dərinləşir. Bu barədə o, xatirələrində yazırdı:

> ...Tiflisdə müsəlman milli şurası həmin il (1918-ci il – F.V.-H.) 29 sentyabrda öz tərəfindən Gürcüstan parlamentinə dörd nəfər nümayəndə seçmişdi: Əbdürrəhim bəy Haqverdiyev, Əliheydər Qarayev, müəllim Mirzə Hüseyn Həsənzadə və mən. Bu vaxtdan etibarən ta Haqverdiyev Bakıya gedən günə qədər biz hər gün, ya günaşırı görüşür, danışır, dərdləşirdik. Nəticədə biz daha da yaxınlaşdıq... Mənim arxivimdə Tiflisdə K.Y.Zubalov adına xalq evi nəzdində türk dram cəmiyyətinin 1919-cu il üçün üzvlük bileti vardır. Mənim adıma yazılmış bu bileti türk dram cəmiyyəti idarə heyətinin sədri Ə.Haqverdiyev imzalamışdır (Şərif, 1977, s. 221-222).

Daha sonra Ə.Şərif yazırdı:

"Gündəliyimdə bu qarışıq və mürəkkəb dövr haqqında maraqlı qeydlər yox deyildir, lakin bu yazıdakı mövzuya dəxli olmadığı üçün onların üzərində dayanmaq istəmirəm" (Şərif, 1977, s. 222).

Qeyd edək ki, Ə.Şərif 1938-ci ildə "Ə.Haqverdiyevin dramaturgiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Sonuc

Əziz Şərif, yuxarıda təqdim etdiyimiz məlumatlardan da göründüyü kimi, varlığını cəmi 33 ay sürdürə bilmiş Gürcüstan Demokratik Respublikasının ictimai-siyasi həyatında aktiv rol oynamışdır. O, 1918-ci ilin oktyabr - 1919-cu ilin fevral aylarında parlament funksiyasını yerinə yetirən Gürcüstan Milli Şurasında kvota əsasında yerli Azərbaycan Türklərini təmsil etmişdir. Şuranın – parlamentin "Dövlət dili haqqında" qanunun müzakirə olunduğu 15 oktyabr 1918-ci il tarixli iclasındakı nitqində gənc Gürcüstan dövlətini hansı sınaqların gözləməsindən və hansı təhlükələrin təhdid etməsindən asılı olmayaraq, bu ölkədə yaşayan Azərbaycan Türklərinin cəsarətlə, davamlı olaraq gürcülərlə çiyin-çiyinə addımlayacağını və onların həm sevincini, həm də kədərini bölüşəcəyini bəyan etmişdir.

Həmin dövrdə eyni zamanda Borçalı qəzasının məktəb şöbəsinin müdiri vəzifəsini tutan Ə.Şərif qəzada məktəb çatışmazlığı problemini qabardaraq, milli azlıqlar üçün yeni məktəblərin açılmasının zərurət kəsb etdiyini aidiyyəti qurumların diqqətinə çatdırmışır. Onun bu mövzuda

1919-cu il yanvarın 31-də Gürcüstan Xalq Maarifi Nazirliyinə ünvanladığı təliqəyə müsbət cavab verilmiş, nəticə etibarilə Borçalı qəzasında 6 yeni Azərbaycan-Türk məktəbi təsis edilmişdir.

Əziz Şərif 1919-cu ilin iyun ayında yerli özünüidarəetmə orqanlarına seçkilər nəticəsində Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyasının və "Hümmət" təşkilatının vahid siyahısı üzrə Borçalı dairəsindən qəza məclisinin üzvü seçilmişdir. O, Borçalı qəza məclisi idarəsinin 5 üzvündən biri idi və idarə nəzdində yaradılmış xalq maarifi, tibbi-sanitar və veterinar şöbələrə rəhbərlik edirdi.

Borçalı qəzasının Katerinenfeld məntəqəsində 16 dekabr 1919-cu ildə keçirilmiş Gürcüstan "Hümmət" Sosial-Demokrat Fəhlə Partiyasının (menşeviklər) ilk qurultayında Ə. Şərif bu təşkilatın mərkəzi komitəsinin sədri seçilmişdi. Azərbaycan sovet işğalına məruz qalandan bir neçə gün sonra, Gürcüstanın da bolşevik təcavüzü və təhdidləri ilə üzləşdiyi bir dövrdə – 1920-ci ilin may ayında onun sədrliyi ilə Katerinenfelddə solçu Borçalı müsəlmanlarının növbəti qurultayı təşkil olunmuşdu. Bu qurultayda Ə.Şərif çıxış edərək müsəlmanları gürcü hökumətinin ətrafında birləşməyə çağırmış, toplantı iştirakçıları tərəfindən onun bu mövqeyinin əks olunduğu qətnamə qəbul edilmiş və Gürcüstan hökumətinin sədri N.Jordaniyaya dəstək teleqramı ünvanlanmışdır.

Ə. Şərif 26 noyabr 1920-ci ildə N.Jordaniya ilə görüşərək yerli türk-müsəlman əhalinin təhsil, mədəniyyət, mətbuat və digər sahələrdə üzləşdiyi problemləri müzakirə etmişdir.

Gürcüstan sovet işğalına məruz qalandan sonra Ə.Şərif qısa müddətdə həbsdə olmuş, bundan sonra diplomatik fəaliyyət göstərmiş, bir müddət müxtəlif dövlət vəzifələrini tutmuş, daha sonra ömrünün böyük hissəsini elmi yaradıcılığa həsr etmişdir. O, çap olunmuş xatirələrində sovet siyasi-ideoloji konyunkturuna uyğun olaraq Gürcüstan Demokratik Respublikasında fəaliyyəti və əlaqələri barədə heç nə açıqlamırdı.

Kaynaklar

Azerbaydjan (*Азербайджан*) qəzeti (1918). 21 oktyabr, № 14.

Azerbaydjan (*Азербайджан*) qəzeti (1919). 20 iyun, № 126.

Borba (*Борьба*) qəzeti (1917). 21 oktyabr, № 137.

Borba (*Борьба*) qəzeti (1918). 17 oktyabr, № 194.

Borba (*Борьба*) qəzeti (1919). 23 dekabr, № 292 (548) və 25 dekabr, № 294 (550).

Borba (*Борьба*) qəzeti (1920). 20 may, № 112 və 19 iyun, № 136.

Eroba (*ერობა*) jurnalı (1920). № 1-14.

Eroba (*ერობა*) jurnalı (1921). № 1-2.

Eroba da kalaki (*ერობა და ქალაქი*) jurnalı (1919). № 1-2.

Eroba da kalaki (*ერობა და ქალაქი*) jurnalı (1920). № 3-8.

Ertoba (*ერთობა*) qəzeti (1918). 7 fevral, № 30 və 17 oktyabr, № 222.

Ertoba (*ერთობა*) qəzeti (1919). 25 fevral, № 44.

Gürcüstan Mərkəzi Tarix Arxivi (*GMTA*), fond № 1834, siyahı 2, iş № 73.

Hacılar, A. (2018). 1918-1919-cu illərdə Tiflis və Borçalı qəzalarında yerli özünüidarəetmə orqanlarına seçkilərdə azərbaycanlıların iştirakı: Dünyada demokratik yolla seçilmiş ilk müsəlman qadın deputat Pərixanım Sofiyeva. *AMEA Tarix İnstitutunun elmi əsərləri (xüsusi buraxılış – "Azərbaycan Xalq Cümhuriyyəti: Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifəsi" mövzusunda beynəlxalq elmi konfransın materialları)*. Bakı, 2018, № 74-76, s. 220-227.

Kavkasiis kalaki (*კავკასიის ქალაქი*) - *Кавказский город* jurnalı (1919). 1 noyabr, № 18-19.

Kavkazskoye slovo (*Кавказское слово*) qəzeti (1918). 17 oktyabr, № 222.

Kavkazskoye slovo (*Кавказское слово*) qəzeti (1919). 9 iyul, № 135.

Qruziya (*Грузия*) qəzeti (1918). 17 oktyabr, № 36 (13).

Paşayev, Ə.; Bayramov, N. və Qocayeva-Məmmədova, G. (2012). *Gürcüstanda Azərbaycan məktəbləri*, Tiflis.

Sakartvelo (*საქართველო*) qəzeti (1919). 17 yanvar, № 12 və 3 iyul, № 137.

Sakartvelos Respublika (*საქართველოს რესპუბლიკა*) qəzeti (1918). 11 oktyabr, № 63.

Sakartvelos Respublika (*საქართველოს რესპუბლიკა*) qəzeti (1919). 19 yanvar, № 14; 21 yanvar, № 15; 1 fevral, № 25.

Sakartvelos Respublika (*საქართველოს რესპუბლიკა*) qəzeti (1920). 16 may, № 108.

Slovo (*Слово*) qəzeti (1920). 18 may, № 110.

Şərif, Ə. (1977). *Keçmiş günlərdən. Xatirələr*. Bakı: Azərnəşr.

Teatri da tsxovreba (*თეატრი და ცხოვრება*) jurnalı (1919). № 12.

Valehoğlu, F və Valehoğlu, N (2020). Karabağlı yazar, diplomat, devlet adamı Abdurrahim Bey Hakverdiyev ve Tiflis siyasi-ictimai, edebi-medeni mühiti. *I Uluslararası Türkçe, Edebiyat, Kültür, Eğitim Sempozyumu bildiri kitabı*. Bursa, s. 187-200.

Valehoğlu-Hacılar, F. (2018) GDR-in ilk ali qanunverici orqanı: Gürcüstan Milli Şurası və onun azərbaycanlı üzvləri. *"Gürcüstan" qəzeti*. Tiflis, 11 may, № 35-36 (№ 12697), s. 6-7.

Valehoğlu-Hacılar, F. və Hacılar, A. (2018). Gürcüstan Demokratik Respublikasında yerli özünüidarəetmə orqanlarına seçkilərdə azərbaycanlıların iştirakı. *"Gürcüstan" qəzeti*. Tiflis, 15 iyun, № 45-46 (№ 12707).

Extended Abstract

Azerbaijani intellectuals living in Tiflis also took an active part in the socio-political processes taking place in the Democratic Republic of Georgia, which declared its independence on May 26, 1918. One of such figures was a prominent literary scholar-scientist, critic, and translator – Aziz Sharif (Abdulaziz Sharifov//Aziz Gurbanali oghlu Sharifzadeh).

Born in Nakhchivan in 1895, Aziz Sharif spent his youth mainly in Tiflis. He completed his secondary education in Tiflis in 1915 and was admitted to the Moscow Commercial Institute in the same year. In 1917, mass popular movements and the dynamic socio-political processes taking place on an all-Russian scale did not leave the South Caucasus unaffected, and while Aziz Sharif was still a student, he started active socio-political activity in the ranks of the "Hummat" Social-Democratic Muslim Organization. He holds the positions of the deputy chairman of the

executive committee of the council of workers' and soldiers' deputies of the city of Nakhchivan, İrevan province, and the chairman of the council of workers' deputies. After the October coup, he participated in the elections to the All-Russian Constituent Assembly held on November 26-28, 1917; his name was ranked 5th in the list of 12 candidates for the Transcaucasia electoral district of the "Hummat" Muslim organization of the Russian Social-Democratic Labor Party (Mensheviks). In January 1918, A. Sharif returns to Tiflis, where he had received secondary education, and here he becomes one of the most active members of the Tbilisi branch of "Hummat".

In September 1918, A. Sharif won the mandate of the deputy of the first parliament of Georgia, which gained its independence on May 26 of that year, and at the same time, he was appointed as the head of the school department of Borchali district and led the development of educational work in the district.

On January 31, 1919, the head of the school department of Borchali district, A. Sharif, wrote a letter to the Ministry of Public Education stating that school work in Borchali district is at the first stage of its development and, therefore, it should be given special attention.

From the stenographic notes, it is possible to see that A. Sharif actively participated in the discussions on certain issues in the parliamentary sessions. At the session of the Parliament on October 15, 1918, during the discussion of the law "On the State Language", A. Sharif, who asked Chairman Ekvtime Takaishvili to speak, apologized for not knowing the Georgian language fluently and noted that both he and his fellow Muslims would have to use Russian, which was understood by all the deputies, during their speeches and made the following statement on behalf of Muslim MPs:

"We, the representatives of Georgian Muslims who share the same environment with you, hope that by knowing the psychology and aspirations of our people, we can facilitate your difficult work in matters related to Muslims. We believe that there is no need to talk about the friendship and brotherhood of our people because their relationship with each other is well known to everyone.

Muslim democracy, feeling the blows of not only foreign forces but also the enemies of the people from among themselves, will now take a deep breath, feel the beauty of freedom and peaceful labor, and believe it, there will be no force that can separate it from independent Georgia. The Great Russian revolution, which gave us freedom, is experiencing a period of severe, almost fatal crisis, and if there is a corner where its achievements—freedom and equality, friendship and unity—exist, it is in little Georgia. We, the representatives of Georgian Muslims, will strengthen these achievements with all our possible forces and protect them from both foreign and domestic enemies.

And know that no matter what trials lie ahead or what dangers threaten this young nation, we will walk shoulder to shoulder with you and share your joys and possible sorrows in the future. "Citizens of Georgian Parliament, Greetings, I send my warm greetings and sincere wishes to the freedom-loving Georgian people in your person" (Ertoba newspaper, 1918, No. 222; Borba newspaper, 1918, No. 194; Kavkazskoye slovo newspaper, 1918, No. 222).

In February 1919, due to the formation of the new parliament, his mandate as a deputy ended. In June 1919, A. Sharif, who took part in the elections to the local self-governing bodies of Borchali district, was elected district glasni (deputy) from Borchali district on the single list of

the Social-Democratic Labor Party of Georgia and "Hummat". At the same time, he becomes one of the 5 members of the Borchali local self-government department and heads the public education, medical-sanitary, and veterinary departments of the department.

At the first congress of the Georgian "Hummat" Social-Democratic Labor Party (Mensheviks), held on December 16, 1919 in the Katerinenfeld German colony of Borchali district, A. Sharif was elected the chairman of the central committee of the said party.

A few days after Azerbaijan was invaded by the Soviet Union on May 14, 1920, the next congress of left-wing Borchali Muslims was held in Katerinenfeld under the chairmanship of Aziz Sharif. While giving a speech at the event, A. Sharif emphasized that the victory of the Bolsheviks divided Russia into several independent parts, called on Muslims to unite around the Georgian government, and noted that "flourishing Georgia is proof of the failure of Bolshevism's policy for the whole world" (Borba nespaper, 1920, No. 136).

The participants of the Congress also sent the following telegram to the Chairman of the Government of the Republic of Georgia, signed by A. Sharif:

"The Congress of Borchali Muslims greets you - the head of Georgian democracy, who holds the flag of rights and equality high, and who promised to protect the republic's independence from the enemy (Bolsheviks-F.V.-H.) standing at the door. Long live the Republic of Georgia" (Sakartvelos Respublika newspaper, 1920, 108, p. 3; Slovo newspaper 1920, No. 110, p. 3).

From the information published in the 24th issue on November 30, 1920, "Yeni Dunya", a weekly broadcasting organ of the Georgian branch of "Hummat" in Azerbaijani Turkish, "Yeni Dunya", a political, social, economic, and folk newspaper. On November 26 of that year, Sharif met with the head of the Georgian government, N. Jordania, and discussed the problems faced by the local Turkic-Muslim population in education, culture, the media, and other fields.

After the collapse of the Democratic Republic of Georgia in February 1921, Aziz Sharif was arrested as a member of the Central Committee of the Georgian Social-Democratic Party (Mensheviks) and brought to Baku, but was released soon after with the direct intervention of N. Narimanov.

Although Aziz Sharif played a fairly active role in the social and political life of the Democratic Republic of Georgia, which lasted only 33 months, either as a member of the Parliament of Georgia and a deputy of Borchali district, or as the chairman of the central committee of the Social Democratic Party of Georgia "Hummat", it is likely that in his published memoirs, according to the Soviet political-ideological conjuncture, he did not reveal anything about his activities and relations in that historical period.